UOT: 61(091)

**Sonaxanım Hadiyeva,**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*

*sonaxeyal@mail.ru*

# ƏSKİ TİBB TARİXİMİZDƏN

**Açar sözlər**: *təbabət, təbib, Azərbaycan tibb tarixi, Kafiyəddin Ömər, Nəsrəddin Tusi*

**Ключевые слова**: *медицина, врач, история азербайджанской медицины, Кафиаддин Омар, Насреддин Туси*

**Key words**: *Medicine, doctor, history of Azerbaijani medicin, Kafiyaddin Omar Osman, Nasiraddin Tusi*

Azərbaycanda təbabət qədim dövrlərdən inkişaf etməyə başlamışdır. Bünövrəsi türk şamançılığı ilə qoyulan müalicə üsulları geniş yayılmış, təkmilləşdirilmişdir. Sonralar Azərbaycanda məskunlaşmış bulqar, qıpçaq və oğuz tayfalarının biliciləri bir çox şəfaverici otlardan müalicə məqsədi ilə istifadə etmişlər. Hələ e.ə. III-II minilliklərdə Azərbaycanda təbabətin inkişafda olduğunu bildirən faktlar aşkara çıxarılmışdır. F.Ələkbərlinin məlumatına görə, İsgəndəriyyə tibb məktəbinin nümayəndələrindən, anatomiya və fiziologiya sahəsində bir çox dəyərli fikirlərin müəllifi olan Erizistat Azərbaycanı və İranı gəzmiş və buradan bir çox biliklər əldə etmişdir (4, s.11). Təəssüf ki qədim dövrlərdə fəaliyyət göstərən təbiblərimizin dəyərləri əsərlərinin çoxu zamanın tufanlarına davam gətirməmiş hardasa itib-batmışdır.

Əlimizə gəlib çatan tibbi əsərlərə baxanda ilkin sırada X əsr tibb tarixinin görkəmli nümayəndələrindən biri olan İsa ur Raqi Tiflisini görürük. O bir çox Şərq ölkələrində səyahətdə olmuş, bir sıra tibbi əsərləri tərcümə etmişdir. Onun "Tibb" adlı əsəri gəlib bizə çatmışdır. İsa ər-Rağі Tiflisi İbn Sinanın "Qanun" əsərinə şərhlər yazmışlar (4, s. 14).

X əsrdə Azərbaycanda həkimlər həm xəstələri müalicə edir, həm də lazım olan dərmanları özəri hazırlayırdılar. Əsasən bitki mənşəli dərmanlara üstünlük verilsə də, bəzi heyvanların bədən materiallarından da dərmanşünaslıqda istifadə edilirdi. Ş.Mikayılova yazır: "Orta əsrlərdə yaşamış görkəmli dərmanşünas Məhəmməd Hüseyn Nur Bəxşi (913-1007) dərmanşünaslığa aid olan kitabında bir neçə xəstəliyi tanıtmış və həmin xəstəliklərin müalicəsini izah etmişdir. Bu dövr Azərbaycanda dərmanşünaslığın inkişafının parlaq dövrü sayılır. Bu dövrdə təbib Əhməd bin Hüseyn əl-Şəfainin (963-1056) "Karabadin" (Farmakopeya) kitabı nəşr edilmişdir ki, bu kitab dərmanşünaslığa aid ən qiymətli kitablardandır" (8, s. 27). (O dövrdə kitab çapı mümkün deyildi. Çox güman ki, müəllif "yazılmışdı, var idi" demək istəmişdir).

Əbülhəsən Bəhmənyar ibn Mərzban əl-Azərbaycani (993-1066) İbn-Sinanın tələbəsi olmuşdur. Bəzi müəlliflər onu atəşpərəst hesab edir, bəziləri isə sonradan islamı qəbul etdiyini yazırlar. "Şərq panteizminin XI əsrin ortalarına aid mərhələsi bilavasitə Bəhmənyarın adı ilə bağlıdır. O, bir sıra qiymətli əsərlərin müəllifidir: "Ət-təhsil"

(“Təhsil”), “Əz Zinə fi-l-məntiq” (“Məntiqə dair zinət”), “Əl-Bəhcə və-s-səadə” (“Gözəllik və səadət”), “Kitab fi-l-musiqa” (“Musiqi kitabı”), “Maudu ilm mə bəəd ət-təbiə” (“Metafizikanın mövzusu”), “Məratib əl-maucudət” (Mövcudatın mərtəbələri”). Bəhmənyarın soruşduğu məsələlər və İbn Sinanın onlara verdiyi cavablardan ibarət məktublar da ciddi fəlsəfi məzmun daşıyır” (9, s. 496). Onun “Ət-təhsil” əsərində təbabətlə bağlı məsələlərdən də bəhs edilir. İnsanın sinir sisteminin fəaliyyətinin bədən üzvlərindən asılı olduğu qənaətinə gələn alim, həm də hissi fəaliyyətin xarici aləmin orqanizmə təsiri ilə baş verdiyini bildirir.

Orta əsrlər Azərbaycanının Şirvan zonasında da təbabətin inkişafı üçün böyük işlər görülmüşdür. Məşhur təbib Kafiyəddin Ömər Osman oğlu (1080-1150) Şamaxı yaxınlığında Məlhəm adlı ərazidə (hal-hazırda Şamaxının Məlhəm kəndi vardır – S.H.) ilk dəfə olaraq akademiya səviyyəsində elm oçağı yaratmış, təbii dərman preparatlarının hazırlanması texnologiyasının əsasını qoymuşdur. XI əsrdə Azərbaycan tibb məktəbinin əsasını qoymuş Kafiyəddin Ömər astronom, filosof, riyaziyyatçı, kimyaçı, cərrah və əczaçı idi. Xaqani Şirvani öz şeirlərində əmisi Kafiyəddinin ona örnək olduğunu, ona çox şey öyrətdiyini bildirmiş, əmisinin hünərini tərənnüm etmiş, vəfatına da mərsiyə yazmışdır. Kafiyəddin ilk dəfə stasionar təşkil etmiş, bir çox çarəsiz dərdlərə əlac etmişdir. Müalicəxanaya Təbrizdən, Gəncədən və digər şəhərlərdən həkimlər, əttarlar dəvət olunurdu. Onun nəzdində fəaliyyət göstərən tibbi mədrəsənin şagirdləri dağlardan, bağlardan, meşələrdən dərman bitkilərini toplayırdılar. Bu materiallar müalicəxananın əczaxanasında dərmana çevrilirdi (8, s. 44).

Tarixdən bizə məlum olan, təbabətə aid kitabları gəlib bu günümüzə çatan dəyərli alim təbiblər haqqında məlumatları araşdırdıqda Azərbaycanın orta əsrlər tibb tarixinin nə qədər zəngin olduğunun şahidi oluruq. Ən çox cənub bölgəsində, xüsusilə paytaxt olan Təbrizdə görkəmli elm adamları, ustad təbiblər yetişmişdir ki, bunlardan biri Mühzəbəddin Əli ibn Əhməd Təbrizidir. XII əsrdə yaşayıb-yaratmış bu böyük şəxsiyyəti tarixçilər Azərbaycanın İbn-Sinası adlandırmışlar. Mühzəbəddin Əli Təbrizinin “Əl-Muxtar” və “Kitabi-tibb ül-cəmali” adlı dəyərli tibbi əsərləri məşhurdur.

Təbrizdə yaşayıb fəaliyyət göstərən məşhur həkimlərdən biri də Əbu Abdullah Məhəmməd bin Nəmvar Təbrizi (1194-1245) olmuşdur. Onun haqqında internet saytında da, F. Ələkbərli və Ş. Mikayılovanın kitablarında da çox qısa məlumat vardır. O, öz dövründə bir çox tibbi əsərləri ilə məşhur olmuşdur ki, onlardan ən çox yayılanı “Ədvarül-həmmiyyat”dır. Burada qızdırmalara qarşı dərmanlar haqqında məlumat verilir.

Naxçıvanda da təbabəti inkişaf etdirən ustad həkimlər yetişmişdir. Onlardan biri də Nəcməddin Əhməd Naxçıvanidir (öl. 1253). Naxçıvanda dünyaya göz açmış, orada da yaşayıb fəaliyyət göstərmişdir. Tibbi və təbiətşünaslıq elmlərinə, fəlsəfəyə dair bir sıra əsərlər yazmışdır. Eyni zamanda İbn Sinanın “Qanun fit-tibb” əsərinə çoxlu şərhlər yazmış, hətta onu tənqid etmişdir. Bu şərhlərilə bütün Yaxın Şərqdə tanınmış, məşhurlaşmışdır. Bundan başqa Cəlaləddin Ruminin həkimi, həm də yaxın dostu, orta əsrlərdə “həkimlərin ağası”, “dünya həkimlərinin rəisi” və s. bu kimi titullarla yad edilən Əkmələddin Naxçıvani kimi, Fəxrəddin Əbu Abdullah Əhməd ibn Ərəbşah ibn Əli ibn Cəbrayıl ən-Naxçıvani kimi məşhur həkimlər də olmuşdur (1, s. 470).

Azərbaycanın nəhəng alimlərindən biri Nəsrəddin Tusi Məhəmməd ibn Həsəndir (1201-1274). Tus şəhərində dünyaya göz açmışdır. İbtidai təhsilini atası Həsəndən almış, sonra Bəhmənyar ibn Mərzba və İbn Sina məktəbinin yetişdirdiyi alimlərdən

bəhrələnmişdir. Tusi 1232-ci ildə Kuhistana gəlmiş, burada Nəsrəddin Möhtəşəmin təklifinə əsasən "Əxlaqi-Nasiri" əsərini qələmə almışdır. Əsəri bəyənməyən hökmdar alimi Ələmut qalasına salmış və o burada on iki il dəhşətli zaman keçirmişdir. Lakin bütün bu təhqirə, əziyyətlərə baxmayaraq Tusi sarsılmamış, elmi fəaliyyətini həbsdə də davam etdirmiş və bir neçə əsər yazmışdır. Elxani hökmdarı Hülakü xan qalanı aldıqdan sonra Tusini azad edib özünə müşavir təyin etmişdir. Hülakü vəfat etdikdən (1265) sonra da Tusi ömrünün axırınadək oğlu Abaqa xanın vəziri vəzifəsində fəaliyyət göstərmişdir. Tusi eyni zamanda Marağa rəsədxanasına da rəhbərlik edirdi. Tusinin təbabətə aid "Qəvaidi-elmi-tibb" və Risaleti-tibb" əsərləri vardır. "Risaleti-tibb" adlanan bu əsərdə müəllif bir sıra təbii maddələrin, o cümlədən minerallların müalicəvi əhəmiyyətindən bəhs edir (10, s. 125). Tusinin bir çox əlyazma əsərləri Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Q.Kəndli Tusinin "Tənsuqnameyi-Elxanı" və ya "Cəvahirnamə" əsərini fars dilindən çevirmiş, 1984 və 1989-cu illərdə əsər "Elm" nəşriyyatında çap olunmuşdur.

Əbdül Məcid Təbib də XIII əsrin görkəmli alimləri sırasındandır. O da Marağa rəsədxanasında çalışmış, Nəsrəddin Tusinin tələbəsi olmuşdur. Deyilənə görə, "Kitabül-tibb" və ya "Kitabül-müdavat" əsərini yazarkən Mahmud ibn İlyasın "Elmi-tibb" əsərindən bəhrələnmişdir. "Kitabül-tibb" əsəri bir sıra xəstəliklərin diaqnostikasına və müalicəsinə həsr olunmuşdur. Burada tənəffüs sistemi xəstəlikləri, ginekoloji xəstəliklər, hamiləlik, göz xəstəlikləri haqqında zəngin məlumatlar vardır. Müəllif daha çox sinir sistemi xəstəliklərindən, ruhi xəstəliklərdən, insanın psixi hallarından bəhs etmişdir.

Orta əsrlərdə yaşayıb-yaradan azərbaycanlı həkimlərin demək olar ki, böyük əksəriyyətinin təbabətə aid əsərləri olmuşdur. Ən çox da kitabları bu gün əlimizə gəlib çatan müəlliflər tanınmış, tədqiq olunmuşdur. Təbabət sahəsində dəyərli xidmətləri olan azərbaycanlı alimlərin böyük bir qisminin cənub tərəfdən olması orta əsrlərdə Təbrizin Azərbaycanın paytaxtı olması ilə bağlıdır. O zaman burada mədəniyyət, o cümlədən təbabət də çox inkişaf etmişdir. XIII əsrin əvvəlində Qazan xan Təbrizin cənub-qərbində Şam-Qazan tibb şəhərciyi saldırmışdı ki, burada həm mədrəsə, həm də "Darüş-şəfa" adlı xəstəxana yaradılmışdı. Bütpərəstliyə qarşı mübarizə aparan, islamın yayılmasına, inkişafına çalışan Qazan xan islamı qəbul etməyənləri ölkədən xaric edilməsi barədə əmr vermişdi. Təbii ki, islam inkişaf edən yerdə təbabət də inkişaf edirdi. "Darüşşəfa" ali məktəb səviyyəsində tibbi müəssisəyə çevrilmişdi. Burada terapevtlər, oftalmoloqlar, cərrahlar, travmatoloqlar və s. sahə üzrə alim-təbiblər çalışırdı. Qazan xanın vəziri, dövrünün tanınmış həkimi, ensiklopedist biliyə malik alim Rəşidəddin Fəzlullah Əbülxeyr Həmədani (1247-1318) də Rəbi-Rəşidi adlı şəhərcikdə tibb universiteti səviyyəsində böyük tibb ocağı yaratmışdı. Bu işdə ona dövrünün Əflatunu, Ərəstunu adlandırılan Mahmud ibn İlyas kömək etmişdi. Bu universitetin adı XIII-XIV əsrlərdə ən məşhur universitetlər sırasında hallanırdı. Burada 500-ə yaxın müəllim və 7000-dən artıq tələbə təhsil alırdı. Beş il təhsil alan tələbələr ətraf bölgələrdə bir il müalicə işi ilə məşğul olurdular. Sonra xüsusi komissiya onların bilik və bacarığını yoxlayır və onlara icazənamələr verilirdi. Universitetə xarici ölkələrdən, o cümlədən Çindən, Hindistandan, Suriyadan həkimlər dəvət olunurdu. Burada İbn Sinanın "Tibb haqqında qanun" əsəri dərslik kimi istifadə edilirdi. XV əsrdə bu kitaba farsca və türkcə şərhlər yazılmışdı. Burada bir sıra alimlərin kitablarından da istifadə edilirdi. Rəşidəddin Həmədani özü də dərsliklər yazırdı. Onun "Cəmi ət-təvarix" (Tarix salnaməsi), 17 fəsildən ibarət "Bəyan əl-

həqayiq" adlı çiçək xəstəliyinə aid əsəri və s. universitetdə tələbələrin dərs kitabları idi. Rəbi-Rəşididəki şəfa evinin yanında dərman bitkilərinin becərilməsi üçün böyük bir bağ salınmışdı. Hətta "Darüş-şəfa"da yatan xəstələr üçün lazım olan meyvə-tərəvəz də bu bağda becərilirdi. Burada Rəşidəddinin rəhbərlik etdiyi "Fəthabad" adlı aptek də fəaliyyət göstərirdi. Rəşidəddinin vəfatından sonra Rəbi-Rəşidi onun düşmənləri tərəfindən dağıdıldı. Oğlu Qiyasəddin orada yenidən təmir işləri gördü. Sonralar Darüş-şəfa da Ağqoyunlu hökmdarı Sultan Yəqubun 1483-cü ildə tikdirdiyi "Həşt behişt" sarayına birləşdirildi və fəaliyyətini davam etdirdi. Təəssüf ki, 1651-ci ildə baş verən zəlzələ saray ilə birlikdə Rəbi-Rəşidi şəhərciyini də məhv elədi.

XIII-XIV əsr Azərbaycan alimlərindən biri də Yusif ibn İsmail Xoyidir ki, Şərqdə İbn Kəbir kimi məşhur olmuşdur. Cənubi Azərbaycanın Xoy şəhərində anadan olub, təhsilini də orada tamamlayan Yusif ibn İsmail bir müddətdən sonra Bağdada köçmüşdür. O, xəlifələrin sarayında həkim kimi çalışmış, 1311-ci ildə ona bütün Şərqdə misilsiz şöhrət qazandıran "Cameyi-Bağdadi" adlı əczaçılıq ensiklopediyasını yaratmışdır. Ərəb dilində yazılmış bu əsər "Mə lə yəsaüt-təbib cəhləhu" ("Savadsız həkimlər üçün lazım olmayan [kitab]") kimi də adlandırılmışdır. "Əsərdə bir neçə min dərman bitkisindən, heyvanı müalicə vasitələrindən və minerallardan söhbət açılır (4, s. 9).

Öz dövrünün tanınmış həkimlərindən olan Ramazan ibn Şeyx Əli Lənkərani XIV-XV əsrlərdə yaşayıb fəaliyyət göstərmişdir. Şeyx ailəsində böyüyən Ramazan din elmləri ilə yanaşı tibb elmini də dərindən öyrənmiş, bu sahədə fəaliyyət göstərib təcrübə toplamış, bu təcrübələri əsasında 1409-cu ildə ərəb dilində "Fərruxnameyi-Cəmali" adlı əsər yazmışdır. Əsərin birinci hissəsində bir sıra daxili xəstəliklərdən, onların müalicəsindən, istifadə olunan dəvalardan, bir sıra gərəkli qida maddələrindən söz açılmışdır. İkinci hissədə bitkilərdən, xüsusən də onların köklərindən alınan dərman vasitələrindən bəhs olunmuşdur. Əsərin üçüncü hissəsində müəllif dərman kimi istifadə oluna bilən mineral maddələr, mədən suları və s. haqqında məlumat vermişdir. "Fərruxnameyi-Cəmali"ni 1594-cü ildə həkim Möhüb Əli İbn Əhməd fars dilinə çevirmişdir (8, s. 73).

Məhəmməd Bərgüşadi XIV əsrdə yaşayıb fəaliyyət göstərmiş Azərbaycan həkimlərindəndir. Onun dərmanşünaslığın inkişafında özünəməxsus yeri vardır. Bərgüşadi həkimlik fəaliyyətində hazır dərman nüsxələrindən istifadə etməklə yanaşı, həm də bir sıra dərman bitkilərindən yeni dərmanlar düzəltmiş, eyni zamanda mineral maddələrdən də istifadə etmişdir. Bərgüşadi öz təcrübələrinə əsaslanaraq bir sıra əsərlər yazmışdır. Onun əsərləri içərisində "Tibbi-nəvəbi" ("Tibb xəbərləri") daha məşhurdur. Əsərin birinci bölümü ərəbcə, ikinci bölümü azərbaycanca yazılmışdır. Birincidə terapevtik xəstəliklər və onların müalicəsi haqqında məlumat verilmişdir. İkincidə bitki tərkibli və mineral dərman maddələrindən, qidalanmadan, xəstəliklər zamanı pəhriz yeməklərindən bəhs olunur (8).

XV-XVI əsrlərdə də Azərbaycanda təbabət inkişafda olmuşdur. "Azərbaycan tarixi"ndə verilən məlumata görə, I Şah Təhmasibin şəxsi həkimlərindən olan Əbülfəth Təbrizi xəstəlikləri təyin etməkdə xüsusi istedad və bacarığa malik imiş. O, ömrünün son illərini I Şah Abbasın sarayında keçirmişdir (2, s. 296). F. Ələkbərlinin yazdığına görə Əbülfəth Təbrizi İsmayıl Mirzə Səfəvinin (öl. 1557) saray həkimi olmuşdur, boyunun kiçikliyinə görə xalq arasında "Kiçik həkim" kimi tanınmışdır. İsmayıl Mirzənin ölümündən sonra isə Təbriz valisi Əmir xanın sarayında həkim işləmişdir (4, s. 13).

XV-XVI əsrlər dövrünün məşhur həkimlərindən biri də Əlaəddin Həkim Təbrizi olmuşdur. O, Təbrizdə dünyaya göz açmışdır. Onun atası Mirzə Məhəmməd öz dövründə "Fəxrül-ətibba" (Həkimlərin fəxri) adlandırılmışdır. Əlaəddin Təbrizinin "Kamili-əlai" adlı məşhur əsəri vardır ki, burada əlifba sırası ilə tibb terminləri verilmiş və lüğət tərtib olunmuşdur. Əlaəddin Təbrizi Şah İsmayıl Xətai ilə yaxın olmuşdur, bəzi mənbələrdə onun həkimi olduğu qeyd edilir (4, s. 21). "Azərbaycan tarixi"ndə Əla Təbrizi adlı həkimin Şirvan hakimi Abdulla xan Ustaclının həkimi olması barədə məlumat vardır (2, s. 296).

Dövrün dahi şairi Məhəmməd Füzuli (1494-1556) bildiyimiz kimi Kərbəlada anadan olmuşdur. O dövrdə İraq Azərbaycanın tərkibində idi. Füzulinin atası Süleyman İraqa Azərbaycandan köçmüşdü. Füzulinin tibbi-bioloji görüşlərini işlərkən onun "Səhhət və mərəz","Söhbətül-əsmar" kimi dəyərli əsərlərini tədqiqata cəlb etmiş, hətta qəzəllərindəki tibbi-bioloji fikirlərə də istinad etmişdik. H.Araslı, L.Əlizadə, H.Əfəndiyev, Ə.Hüseynov, A.İ. Dadaşzadə, Ə.Nəcəfzadə və b. öz əsərlərində bu məsələyə də münasibət bildirmişlər.

Əbu Talib Təbrizi (öl.1606) də XVI əsrdə anadan doğulmuşdur. Azərbaycan əyanlarından olub Qəzvində Daş meydanında xüsusi xəstəxanası olmuşdur. Təbrizdə fəaliyyət göstərmiş, Türkiyəyə gedib bir müddətdən sonra geri qayıtmışdır. Təbriz hakimi Cəfər paşanın ona böyük hörməti olmuşdur. Əbu Talib Təbrizi 1606-cı ildə Təbrizdə vəfat etmişdir. O dövrün tanınmış təbi blərindən biri Şirvan bəylərbəyi Abdulla xan Ustaclının saray həkimi olmuşdur, tibbə dair kitablar yazmış, əsasən yoluxucu xəstəliklər, dəri xəstəlikləri haqqında dəyərli müalicə üsulları və dərmanları təklif etmişdir.

Rüknəddin Məsud Məsihi (Həkim Rükna) (1579-1655) əslən Təbrizdən olub, həkimlər nəslindəndir. Dövrünün tanınmış təbiblərindən və şairlərindən biri olmuşdur. Məsihi ilk tibbi təhsilini də atasından almış, hələ gənc yaşlarından savadı, şəfası ilə şöhrət qazanmışdır. "Zabitül-əlac" ("Müalicə qaydaları") adlı əsər yazmışdır. Atası Nizaməddin Əli Şah Təhmasibin saray həkimi olmuşdur. Şah Təhmasib Təbrizdən Qəzvinə, daha sonra Şah Abbas paytaxtı köçürəndə İsfahana köçmüşdür. Məsihi İsfahanda savadını daha da artırmış, dərin tibbi biliklərə yiyələnmiş, Şah Abbasın sarayında həkim olmuş, sonralar hətta onun müşaviri vəzifəsinə təyin olunmuşdur. Hindistana səfər etmiş, Hindistanda Əkbər şahın, daha sonra Cahangir şahın sarayında həkimbaşı kimi çalışmışdır. 20 il Hindistanda qalandan sonra 1632-ci ildə Azərbaycana qayıtmışdır. Ömrünün axırına kimi həkimlik etmiş, lakin çox yoxsul həyat tərzi keçirmişdir. 81 yaşında Kaşan şəhərində vəfat etmişdir (8, s. 122).

Azərbaycanın XVII əsrdə fəaliyyət göstərmiş məşhur həkimlərindən biri Məhəmməd Tağı Tufarqanlı (öl.1682) ilk təhsilini dünyaya göz açdığı Tufarqanda mədrəsədə almışdır. Sonralar bir sıra dini və dünyəvi elmləri öyrənmişdir. "Haşiyyatül-İddə" (İddə kitabına haşiyə), "Kəşkül" adlı kitablar yazmışdır. Qardaşı Mövlana Məhəmməd Bağır dövrünün məşhur həkimlərindən olmuşdur. Məhəmməd Tağı tibb həkimliyin sirlərini qardaşından öyrənmişdir. Sonralar böyük təcrübə toplamışdır. Onun tibbə aid bir neçə əsəri olduğu qeyd edilir.

Mir Məhəmməd Zaman Hüseyni Deyləmi (öl. 1698) XVII əsrdə Süleyman şah Səfəvi dövründə yaşamış görkəmli alimlərdən biridir. Atası da Səfəvilər sarayında həkim olmuşdur. Dərmanlara aid materiallar toplamış, lakin işi başa çatdıra bilmədiyindən

kitab yazmağı oğluna tapşırmışdır. Mir Məhəmməd ilk təhsilini atasından almışdır. O da bir sıra tibbi kitabları əldə edib oxumuş, tibbi təcrübə toplamış və dərmanşünaslığa öz töhfəsini vermişdir. Mir Məhəmməd Möminin bu böyük həcmli məşhur əsəri Süleyman şah Səfəviyə ithaf olunmuş "Töhfeyi-həkim Mömin"dir. Əsərin müxtəlif nüsxələri bir çox ölkələrin kitab xəzinələrində mühafizə olunur. Əlyazmalar İnstitutunda əsərin 24 əlyazması saxlanılır. Əlyazmadakı qeyddən bilinir ki, əlyazma Fətəli şah Qacarın nəvəsi Bəhmən Mirzənin kitabxanasındandır. Burada Bəhmən Mirzənin möhürü və əsərin kitabxanaya verildiyi tarix (1829) vardır. Əsər 1500 səhifəyə yaxındır. Əsər 1500 səhifəyə yaxındır (45, s. 22).

Həsən ibn Rza Şirvani də XVII əsrdə yaşayıb fəaliyyət göstərmişdir. Doğum və ölüm tarixləri haqqında heç bir məlumatımız yoxdur. Əlyazmalar İnstitutunda "Tibb" adlı təzkirədə verilmiş "Siracüt-tibb" (Tibbin çırağı) adlı əsərini yazmışdır (1864). Əsər fars dilindədir. İnstitutumuzun əməkdaşı İ.Qayıbova əsəri tərcümə etmiş, ön söz yazmış, şərhlər, qeydlər və lüğət vermişdir. Kitabın redaktoru R.Şeyxzamanlıdır. Əsəri oxuduqda müəllif haqqında bəzi bilgilər əldə etmək olur. Belə ki, Həsən Rza Şirvaninin savadlı, dərin, hərtərəfli biliyə malik, imanlı bir şəxs olduğu qənaətinə gəlmək olur. Bir çox dilləri bilmiş, bir sıra alim təbiblərin əsərlərini oxumuş, həkimlik fəaliyyətində böyük təcrübə toplamış, yeni dərman vasitələri əldə etmiş, yeni nüsxələr hazırlamışdır. Bütün bunları bir araya gətirib "Siracüt-tibb" əsərini yazmışdır.

Azərbaycan müəlliflərindən Məhəmməd Yusif Şirvani (Şirvanlı Məhəmməd) XVII-XVIII əsrlərdə yaşayıb fəaliyyət göstərmişdir. Əlyazmalar İnstitutunda onun "Tibbnamə" adlı əlyazması saxlanılır. Əsər nəsx xəttilə yazılmış, 114 vərəq həcmində, 120 babdan ibarət olub, 1124/1712-ci ildə köçürülmüşdür. Məhəmməd Yusif Şirvaninin əlyazmanın əvvəlində fars dilində yazdığı kiçik qeydindən həm özü haqqında, həm də əsər haqqında dəqiq məlumat alırıq: "Bu bir hikmət kitabıdır. Məlum olsun ki, dərəcəsi yüksək və məqamı ali olan Şirvanın eşikağası Lütfəli bəy Şamaxı hakimi Hüseyn xan ilə vuruşduğu tarixdə bu məsələ padişahın vəliün-nəminə çatdırıldı və o qəzəblənib mənim ağam Lütfəli bəyi həbsə alıb Hörmüz qalasına göndərdi. Mən yazıq da Lütfəli bəyin təbəələrindən olduğum üçün qorxudan qaçaq düşüb bir neçə müddət İraq və Azərbaycan torpağını gəzdikdən sonra zalım fələk mən bəndə Məhəmməd Yusif Şirvanini Dağıstana atdı. Bir müddət bu zavallı ömrümü onların arasında sərf edib, axırda Terek qalasına gəldim. Keyfimin son dərəcə pis vaxtında bu nüsxəni ələ gətirib bir neçə gün içində onun üzünü köçürtdüm ki, məndən sonra bəlkə bir adamın əlinə düşüb müsəlmanların karına gələ və mənə xeyir-dua edələr. Tarix sahibi belə rəvayət edir ki və onun katibi belə yazır ki, bu kitab Sultan Muradın hakimiyyəti illərində İrəvan qalasında Sultan Muradın həkim başçısının kitabxanasından götürülmüş və nəhayət, Terek qalasında mənim əlimə çatmışdır. Mən də onu büsbütün yazdım ki, bir gün işə yarasın. O nüsxə türkcə yazılmışdı, mən də türk ləfzləri ilə yazdım. Tarix bu zaman min yüz iyirmi dördə çatmışdı, vəssəlam" (7, s. 4-5). Əlyazmanı Əlyazmalar İnstitutunun əməkdaşı A.Ramazanov transliterasiya etmiş, M.Sultanov və A.Fərzəliyev nəşrə hazırlayıb, ön söz yazmışlar. Şərhlər, lüğət və mətnin redaktəsi F.Ələkbərovundur.

Əbülhəsən əl-Marağİ XVIII əsrdə yaşayıb fəaliyyət göstərmiş Azərbaycan həkimlərindəndir, "Müalicati-münfəridə" adlı bir kitab ərsəyə gətirmişdir. Əsəri "bismillah"la başlayan müəllif yazır: "Duaları eşidən, bəla, müsibət və zərərlərdən qoruyan Allaha həmd olsun. Peyğəmbərin sonuncusuna və pakların səcdəgahına salavat və sa-

lamlar olsun. Bundan sonra isə kiçik və müti bəndəniz Əbülhəsən əl-Marağİ (Əbədi olan Allah onun günahlarını bağışlasın) belə söyləyir ki, hicri təqvimi ilə 1139-cu ildə İbn Konyevinin "Töhfə və məfatih" (Töhfə və açarlar) əsəri kimi ərəb dilində olan kitablar, müəyyən təzkirələr və s. əsərlərdən topladığı məlumatlar əsasında bəzi məzacların sınaq və təcrübədən çıxmış sadə dərman və vasitələrlə müalicəsinə dair müxtəsər bir əsər yaratdı və onu "Müalicati-münfəridə" (Sadə müalicə üsulları) adlandırdı " (3, s. 10).

XVIII əsrdə yaşayıb fəaliyyət göstərmiş Azərbaycan təbiblərindən biri də Hacı Süleyman Qacar ibn Süleyman İrəvanidir. Onun dərmanşünaslığa aid "Fəvaidül-hikmət" adlı əsəri vardır ki, burada 600-ə yaxın dərman bitkisi haqqında məlumat vermiş. Həm də onları təsnifləşdirmişdir. Hacı Süleyman bir sıra dilləri öyrənmiş, əsərində istifadə etdiyi dərman bitkilərinin müxtəlif dillərdə adlarını qeyd etmişdir: ərəb, fars, latın, yunan, fransız. Müəllif hər bir dərman bitkisinin hansı xəstəlikdə, hansı forma və dozada istifadə edilməsini göstərmişdir. Əsərdə çəki daşları haqqında da məlumat verilmişdir.

Qayıbov Mirzə Məhəmmədqulu Mollahəsən oğlu Qarabaği (1818-1879) də Azərbaycanın tibb tarixində yeri olan ziyalılarımızdandır. Əslən Şuşalıdır, ilk təhsilini də Şuşada almış, sonra İsfahan şəhərinə oxumağa getmiş, oradakı Darüşşəfada təhsilini davam etdirmiş və yenidən Şuşaya qayıtmışdır. Xurşidbanu Natəvanın şəxsi həkimi olmuşdur. Qədim tibb ədəbiyyatını toplayıb zəngin kitabxana yaratmışdır. Qarabaği, Səid Məhəmməd Hüseynin "Məxzənül-ədviyyə" adlı əlyazmasının üzünü köçürmüşdür.

Vaxtilə Bakının kəndlərindən Nəcəfə, Bağdada, Suriyaya, Quma, Xorasana oxumağa gedən gənclər 20-25 il dini təhsil almaqla yanaşı, təbabətin incəliklərinə də bələd olurdular.

Hacı Mir Əbdül Qəni (1845-1913) Aqil baba nəslindən olan Seyid Yusif ağanın oğludur. Orta təhsilini kənddə mədrəsədə almış, 1863-cü ildə Bağdada ali dini təhsil almağa getmiş, sonra Nəcəf şəhərində təhsilini davam etdirmişdir. Dini elmlərlə yanaşı dünyəvi elmləri, o cümlədən təbabəti də dərindən öyrənmişdir. 1882-ci ildə əslən ərəb olan Pakistan xanı Məhəmməd Nəbi çarəsiz dərdə mübtəla olan qızı Məsuməni diyar-diyar gəzdirəndən sonra İraqa gətirir. Ona məsləhət görürlər ki, hövzədə bir tələbə var, qızını ona göstərsin. Mir Qəni xanın qızını sağaldır, xan isə dediyi sözə vəfa edərək, qızını Mir Qəniyə verir. Bundan sonra Mir Qəni Bağdadda məşhurlaşır. 25 illik təhsilini başa vuran Mir Qəni İrana gəlir, burada şöhrət qazanır, İran şahı Müzəffərəddin onunla yaxın dost olur. Mir Qəni İranda "Badkubə" adlı məscid tikdirir. Sonralar ailəsi ilə birlikdə Maştağaya dönür. Maştağada indiki Cümə məscidini titdirir. Bakının hər yerindən onun moizələrinə qulaq asmağa gəlirlər. Hətta Zeynalabidin Tağıyev də öz dəstəsi ilə birlikdə Cümə məscidinə tez-tez gəlir. Eyni zamanda Azərbaycanın hər yerindən çarəsiz xəstələr Mir Qəni ağaya pənah gətirir və ümidsiz qayıtmırmışlar. Mir Qəni ağa bir çox kitablar yazmışdır, təəssüf ki, repressiya dövründə hamısı məhv edilmişdir. Deyilənə görə Mir Qəni ağa hətta xərçəngi də müalicə edirmiş. Amma bunun üçün dərmanın tərkibinə almaz qatmaq lazım imiş ki, bu da başa başa gəlirmiş. Sonralar Mir Qəni ağanın oğlu Seyid Məhəmməd xərçəngin ucuz başa gələn müalicə üsulunu tapmışdır (6).

Müctəba Hacı Əbdül Mömin oğlu (1851-1935) Maştağada anadan olub, Seyid Məhəmməd ağanın bibisi oğludur. İlk təhsilini kənddə mədrəsədə almış, sonra İranın Məşhəd şəhərində ali dini təhsil almış və təhsilini Nəcəf şəhərində davam etdirmişdir.

Nəcəfül-əşrəfdə 15 illik təhsildən sonra vətənə qayıtmışdır. Həm axund kimi fəalıiyyət göstərmiş, həm mədrəsə açıb tələbələr yetişdirmiş, həm də həkimlik etmişdir. 20 il Maştağada axundluq edəndən sonra Hacı Şıxəlinin xahişi ilə onun Bakıda tikdirdiyi məsciddə axund olur. Öz yerinə isə Mirzə Əbdülkərimi axund qoyur. Axund Müctəba şəhərdə axundluq etsə də kənddə mədrəsədəki fəaliyyətini və həkimliyini də dayandırmır. O gözəl həkim olmuş, sağalmaz xəstəlikləri belə sağaldarmış. Çünki onun tibb elmini bilməkdən başqa, həm də Allah yanında seçilmişlərdən imiş. Daim kasıbları təmənnasız müalicə edərmiş. Onun xeyli əlyazma kitabı varmış. Repressiya dövründə yandırılıbmış. Onlardan "Həqiqətin dəryası" adlı kitabı ailəsində saxlanılır (6, s.173).

Hacı Seyid Məhəmməd Hacı Mir Əbdül Qəni oğlu 1885-ci ildə Bağdadda anadan olmuşdur. İlk təhsilini atasından almış, 16 yaşında Nəcəf şəhərinə ali dini təhsil almağa getmişdir. Deyilənə görə o, Nəcəf hövzəsinə daxil olanda ayağı altında qurbanlar kəsilmiş, bu bir çoxlarını təəzzübləndirmişdir. Müəllimlərdən Molla Əşrəfi Lənkərani düşünür ki, "Mir Əbdül Qəni kimdir ki, onun oğluna bu qədər hörmət olunur?". Onu imtahan etmək üçün ondan hansı mövzu haqqındasa danışmasını istəyir. Seyim Məhəmməd deyir: "Mövzunu türkcə,farsca, yoxsa ərəbcə danışım?" Ustadı məəttəl qalır və nə sual verirsə, Seyid Məhəmməd cavab verir. Deyir: "A bala, sən daha niyə bura gəlmisən?" Cavabında deyir ki: "Hələ bilmədiklərim çoxdur". On beş illik təhsilini fərqlənmə diplomu ilə bitirən Seyid Məhəmməd Kərbəlada hövzədə dərs deyir. O, təbibinamdar kimi şöhrət qazanır, İraqda qara ciyər xəstəliklərinin müalicə və profilaktikası ilə bağlı üsullar işləyib hazırlayır. Babası Məhəmməd Nəbi xan xəstələnəndə onu yanına çağırır. O, babasını bir neçə ay müalicə altında kliniki vəziyyətdə saxlaya bilir. Məhəmməd Nəbi xan onu vəliəhd elan edir, lakin Seyid Məhəmməd onun ölümündən sonra cəmi dörd ay sarayda qalır və İraqa qayıdır. Sonralar Hindistana və Pakistana səfər edir. İngilis, fransız və hind dillərini öyrənir. Daha sonra İngiltərəyə dəvət olunur. Kral Henrix Pakistan xanının nəvəsini böyük hörmətlə qarşılayır. Seyid Məhəmməd Kral akademiyasında mühazirələr oxuyur. Ona akademiyanın ən yüksək doktorluq diplomu verilir. Həmin diplom Peterburqda da təsdiq olunur. 1916-cı ildə Seyid Məhəmməd vətənə dönür. O, həm Cümə məscidində axund kimi fəaliyyət göstərir, həm də həkimlik edir. deyilənə görə onun böyük kitabxanası və dərman hazırlamaq üçün geniş laboratoriyası var imiş. Dərman bitkilərini xarici ölkələrdən gətirdən həkim çalışır ki, həmin bitkiləri Maştağada becərsin. Təəssüflər olsun ki, qanlı reppessiya onun arzularını yarımçıq qoyur. Seyid Məhəmməd həbs olunur və sürgün edilir. Kitablarını dəmir yolundakı sahədə od vurub yandırırlar. Deyilənə görə, N.Nərimanov ona şəhər xəstəxanalarından birinə rəhbərliyi tapşırmaq istəyib, o isə deyibmiş ki: "Mən əqidəmi və peyğəmbər libasımı dəyişə bilmərəm" (6).

**Ədəbiyyat:**

1.Azərbaycan tarixi 7 cilddə, II cild. - Bakı:Elm,1998.
2.Azərbaycan tarixi 7 cilddə, III cild. - Bakı: Elm,1999.
3.Əbülhəsən əl-Marağı. "Müalicati-münfəridə (sadə müalicə üsulları) (tər. İradə Qayıbova). -Bakı, 2010.- 246 s.
4.Ələkbərli F. Ortaçağ Şərq təbabəti.- Bakı, 2013.- 320 s.
5.Göyüşov N. Məhəmməd Mömin // Elm və həyat. -1986.- №6. -S. 23.

6.Hadi A. İslamı yaşadanlar.- Bakı:"MBM",2013.
7.Məhəmməd Yusif Şirvani. Tibbnamə (transliterasiya edən: A. Ramazanov, nəşrə hazırlayanlar:, M. Sultanov, A. Fərzəliyev, şərhlərin, lüğətin tərtibçisi və redaktor: F.Ələkbərov). -Bakı,1990. - 192 s.
8.Mikayılova Ş. Qədim və orta əsrlərdə Azərbaycanda dərmanşünaslıq. - Bakı,2000. – 206 s.

**Сонаханум Гадиева**

## ИЗ ИСТОРИИ ДРЕВНЕЙ МЕДИЦИНЫ

**Резюме**

В истории азербайджанской медицины есть много видных представителей, которые наряду с медицинской практикой, обогатив труды предшественников своими теоретическими знаниями и опытом, создали ценные труды по медицине. В их числе можно назвать Кафиаддина Омар Осман оглы, Насреддина Туси Мухаммед ибн Гасана, Абдул Меджид Табиба, Рамазана ибн Шейх Али Ленкорани, Мухаммеда Бергушади, Рукнеддина Месуд Месихи, Мухаммеда Юсиф Ширвани и Абулгасана аль-Марагаи.

**Sonakhanim Hadiyeva**

## HİSTORY OF THE OLD MEDİCİNE

**Summary**

Most of the well-known representatives of the history of Azerbaijani medicine used to work not only as doctors, but also they wrote valuable medicinal works by adding their experiments and theoretical knowledge to the works of the previous scientists. Among these representatives we can give the names of Kafiyaddin Omar Osman oglu, Nasiraddin Tusi Mahammad ibn Hassan, Abdul Majid Tabib, Ramazan ibn Sheikh Ali Lankarani, Mahammad Bargushadi, Ruknaddin Masud Masihi, Mahammad Yussif Shirvani Abulhassan al-Maraghi and.